"Delta Telekom LTD" MMM

31 dekabr 2021-ci il tarixində bitən il üzrə konsolidə edilmiş maliyyə hesabatları və müstəqil auditorun rəyi

Müstəqil auditorun rəyi……...………………………………………………………..3

Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat……...………………………………6

Konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabat…..……………………………7

Konsolidə edilmiş pul hərəkətləri hesabatı……………………...…………………………8

Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat….……………………………9

1. Giriş ........................................................................................................................ 10

2. Mühüm mühasibat uçotu prinsipləri ............................................................................ 10

3. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ........................................................... 31

4. Debitor borcları ......................................................................................................... 31

5. Mal-materiallar .......................................................................................................... 31

6. Verilmiş avanslar ....................................................................................................... 32

7. Əsas vəsaitlər ............................................................................................................ 32

8. Kreditor borcları ........................................................................................................ 33

9. Alınmış avanslar ........................................................................................................ 33

10. Digər öhdəliklər ....................................................................................................... 33

11. Satış gəliri .............................................................................................................. 33

12. Digər əməliyyat xərcləri ........................................................................................... 34

13. Maliyyə risklərinin idarə olunması ............................................................................ 34

14. Əlaqəli tərəflər ilə əməliyyatlar ................................................................................ 35

**Müstəqil auditorun rəyi**

“Delta Telekom LTD” Məhdud Məsuliyyətli Müəssisəsinin Səhmdarlarına və Rəhbərliyinə:

Rəy

Biz, “Delta Telekom LTD” Məhdud Məsuliyyətli Müəssisəsinin (bundan sonra “Şirkət”) 31 dekabr 2021-ci il tarixinə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabat, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə olunmuş konsolidə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ya uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını planlaşdırıb həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq,

qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərti ilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını planlamaq üçün auditə aid daxili nəzarəti başa düşürük;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

20 dekabr 2022

Bakı, Azərbaycan

"Delta Telecom LTD" MMM

31 dekabr 2021-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat

*(min Azərbaycan manatı ilə)*

| | Qeyd | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| Pul və pul ekvivalentləri | 3 | 29,977 | 34,346 |
| Debitor borcları | 4 | 38,144 | 31,653 |
| Mal-materiallar | 5 | 4,446 | 4,118 |
| Verilmiş avanslar | 6 | 35,813 | 34,560 |
| Digər aktivlər | | 10 | 60 |
| **CƏMİ CARİ AKTİVLƏR** | | **108,390** | **104,737** |
| Qeyri-maddi aktivlər | | 48 | 54 |
| Əsas vəsaitlər | 7 | 64,735 | 64,604 |
| Verilmiş kreditlər | | 3,691 | 3,175 |
| İnvestisiyalar | | 4 | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **68,478** | **67,833** |
| **CƏMİ AKTİVLƏR** | | **176,868** | **172,570** |
| Kreditor borcları | 8 | 20,151 | 19,170 |
| Alınmış avanslar | 9 | 5,267 | 4,756 |
| Digər öhdəliklər | 10 | 2,269 | 6,961 |
| **CƏMİ CARİ ÖHDƏLİKLƏR** | | **27,687** | **30,887** |
| Təxirə salınmış vergi öhdəliyi | | 5,930 | 5,684 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **5,930** | **5,684** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **33,617** | **36,571** |
| Nizamnamə kapitalı | | 27 | 27 |
| Bölüşdürülməmiş mənfəət | | 143,224 | 135,972 |
| **CƏMİ KAPİTAL** | | **143,251** | **135,999** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **176,868** | **172,570** |

Şirkətin rəhbərliyi adından:

Vəliyev Ramazan,
Baş Direktor ____________________

Bəhrəmova Leyla,
Maliyyə Direktoru ____________________

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ DELTA TELEKOM LTD DELTA AZERBAIJAN REPUBLIC BAKU CITY DELTA TELECOM LTD

"Delta Telecom LTD" MMM

31 dekabr 2021-ci ildə bitən il üçün konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabat

*(min Azərbaycan manatı ilə)*

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| Satış gəliri | 11 | 66,382 | 67,233 |
| **CƏMİ GƏLİRLƏR** | | **66,382** | **67,233** |
| Trafik xidmətləri | | (19,191) | (19,569) |
| Amortizasiya | | (7,452) | (8,697) |
| İşçi heyəti | | (6,232) | (5,858) |
| Quraşdırma və kabel işləri | | (1,606) | (6,897) |
| Material xərci | | (227) | (1,125) |
| Məzənnə fərqləri | | - | 2,507 |
| Digər əməliyyat xərcləri | 12 | (1,320) | (1,700) |
| **CƏMİ ƏMƏLİYYAT XƏRCLƏRİ** | | **(36,028)** | **(41,339)** |
| **XALİS ƏMƏLİYYAT MƏNFƏƏTİ** | | 30,354 | 25,894 |
| Digər qeyri-əməliyyat xərcləri | | - | (800) |
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT** | | **30,354** | **25,094** |
| Mənfəət vergisi | 15 | (6,435) | (5,975) |
| **XALİS MƏNFƏƏT** | | **23,919** | **19,119** |

Şirkətin rəhbərliyi adından:

Vəliyev Ramazan,
Baş Direktor ____________

Bəhrəmova Leyla,
Maliyyə Direktoru ____________

"Delta Telecom LTD" MMM

31 dekabr 2021-ci il tarixində bitən il üzrə konsolidə edilmiş pul hərəkətləri hesabatı

*(min Azərbaycan manatı ilə)*

| | 2021 | 2020 |
|---|---|---|
| Müştərilərdən mədaxil | 101,747 | 79,292 |
| İşçilərə ödənişlər | (6,029) | (5,806) |
| Təchizatçılara ödənişlər | (49,418) | (31,833) |
| Dövlət büdcəsinə ödənişlər | (17,935) | (11,950) |
| **ƏMƏLİYYAT PUL HƏRƏKƏTLƏRİ** | **28,365** | **29,703** |
| Əsas vəsaitlərin alışı | (16,067) | (11,524) |
| **İNVESTİSİYA PUL HƏRƏKƏTLƏRİ** | **(16,067)** | **(11,524)** |
| Dividentlərin ödənilməsi | (16,667) | (11,112) |
| **MALİYYƏLƏŞMƏ PUL HƏRƏKƏTLƏRİ** | **(16,667)** | **(11,112)** |
| Məzənnə fərqləri | - | 324 |
| **XALİS DƏYİŞKLİK** | **(4,369)** | **7,391** |
| **DÖVRÜN ƏVVƏLİNDƏ PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **34,346** | **26,955** |
| **DÖVRÜN SONUNDA PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **29,977** | **34,346** |

Şirkətin rəhbərliyi adından:

Vəliyev Ramazan,
Baş Direktor

Bəhrəmova Leyla,
Maliyyə Direktoru

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ DELTA TELEKOM LTD DELTA DELTA TELECOM LTD AZERBAIJAN REPUBLIC BAKU CITY

"Delta Telecom LTD" MMM
31 dekabr 2021-ci il tarixində bitən il üzrə konsolidə edilmiş kapital dəyişikliklər haqqında hesabat
*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏMİ |
|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixinə balans** | **27** | **127,965** | **127,992** |
| İl üzrə mənfəət | - | 19,119 | 19,119 |
| Divident | - | (11,112) | (11,112) |
| **31 dekabr 2020-ci il tarixinə balans** | **27** | **135,972** | **135,999** |
| İl üzrə mənfəət | - | 23,919 | 23,919 |
| Divident | - | (16,667) | (16,667) |
| **31 dekabr 2021-ci il tarixinə balansı** | **27** | **143,224** | **143,251** |

Şirkətin rəhbərliyi adından:

Vəliyev Ramazan,
Baş Direktor ____________

Bəhrəmova Leyla,
Maliyyə Direktoru ____________

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
DELTA TELEKOM LTD
DELTA
DELTA TELECOM LTD
AZERBAIJAN REPUBLIC BAKU CITY

## 1. Giriş

Delta Telekom Ltd 6 iyun 2000-ci ildə Azərbaycan Respublikasında yaradılmış məhdud məsuliyyətli cəmiyyətdir (Şirkət). Şirkət ilk növbədə iri yerli və xarici internet provayderlərinə, eləcə də iri dövlət və özəl müəssisələrə internet trafiki xidmətlərinin göstərilməsi ilə məşğul olur.

Şirkətin yeganə törəmə müəssisəsi Azərbaycan Respublikasında 18 dekabr 2006-cı il tarixində təsis edilmiş hüquqi şəxs Telekom İnvest MMC-dir (törəmə müəssisə). Şirkət törəmə müəssisəsinin nizamnamə kapitalının 75%-nə sahibdir.

31 dekabr 2020 və 2021-ci il tarixlərinə Şirkətin müvafiq olaraq 213 və 200 işçisi var idi. Şirkətin qeydiyyat yeri Müzəffər Həsənov küç. 69, Bakı, Azərbaycan Respublikası.

## 2. Mühüm mühasibat uçotu prinsipləri

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Şirkətin konsolidə edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq hazırlanmışdır.

Konsolidə edilmiş maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. Tarixi dəyər, ümumiyyətlə, mal və xidmətlər müqabilində verilən məbləğin ədalətli dəyərinə əsaslanır. Konsolidə edilmiş maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir.

### Davamlıq prinsipi

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarını təsdiq edərkən, Şirkətin yaxın gələcəkdə fəaliyyətini davam etdirmək üçün adekvat resurslara malik olduğuna dair əsaslı gözləntilərə malikdir. Beləliklə, bu konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunun davamlılığı prinsipi qəbul edilmişdir.

### Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat

Şirkət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Şirkət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- Şirkətin adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- Hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

Öhdəlik aşağıdakı hallarda cari hesab olunur:

- Şirkətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Şirkət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Qarşı tərəfin seçiminə əsasən onun kapital alətlərinin emissiyasının ödənilməsi ilə nəticələnə bilən öhdəliyin şərtləri onun təsnifatına təsir göstərmir.

Şirkət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

## Gəlirin tanınması

MALLARIN SATIŞI - TOPDANSATIŞ.
Şirkət topdansatış bazarında bir sıra məhsullar satır. Satışlar məhsulların müştəriyə təhvil verildiyi və müştərinin məhsulları qəbul etməsinə təsir göstərə biləcək yerinə yetirilməmiş öhdəlik olmadıqda, məhsullara nəzarət öhdəliyi qarşı tərəfə keçdikdə tanınır. Çatdırılma məhsullar müəyyənləşmiş yerə göndərildikdə və ya birbaşa Şirkətin ərazisindən müştəriyə təhvil verildikdə baş verir. Debitor borc, malların çatdırılması zamanı tanınır, çünki bu, ödənişin şərtsiz olduğu vaxt nöqtəsidir, çünki ödəniş vaxtı çatana qədər yalnız vaxtın keçməsi tələb olunur.
XİDMƏTLƏR.
Xidmətlərin göstərilməsindən əldə edilən gəlir xidmətlərin göstərildiyi hesabat

dövründə tanınır. Sabit qiymətli müqavilələr üzrə gəlir, hesabat dövrünün sonuna qədər göstərilən faktiki xidmətə əsasən, göstərilməli olan xidmətlərin ümumi həcminə nisbətdə tanınır, çünki müştəri faydaları eyni vaxtda alır və istifadə edir. Şirkət xidmətlərin irəliləyişini ölçmək üçün daxiletmə metodundan istifadə edir. Çünki Şirkətin səyi ilə xidmətin müştəriyə ötürülməsi arasında birbaşa əlaqə var.

## Xarici valyutalar

FUNKSİONAL VƏ TƏQDİMAT VALYUTALARI.

Şirkətin konsolidə olunmuş maliyyə hesabatlarına daxil edilmiş maddələr müəssisənin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası ("funksional valyuta") ilə ölçülür. Konsolidə olunmuş maliyyə hesabatları Şirkətin funksional və təqdimat valyutası olan Azərbaycan manatı ilə təqdim olunur.

ƏMƏLİYYATLAR VƏ BALANSLAR.

Müəssisənin funksional valyutasından başqa valyutalarda (xarici valyutalar) aparılan əməliyyatlar Azərbaycan Mərkəzi Bankının əməliyyatların aparıldığı tarixə müəyyən etdiyi rəsmi valyuta məzənnələri ilə tanınır. Hər bir hesabat tarixində xarici valyutada ifadə edilmiş monetar aktiv və öhdəliklər hesabat tarixinə rəsmi valyuta məzənnələrindən istifadə etməklə yenidən çevrilir. Xarici valyutada ifadə olunan ədalətli dəyərlə uçota alınan qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixdə qüvvədə olan məzənnələrlə çevrilir. Xarici valyutada ilkin dəyəri ilə ölçülən qeyri-monetar maddələr yenidən çevrilmir.

Borclara aid olan valyuta məzənnələrindən gələn gəlir və zərərlər maliyyə xərcləri daxilində mənfəət və ya zərər haqqında hesabatda təqdim olunur. Bütün digər valyuta məzənnələri üzrə mənfəət və zərərlər mənfəət və ya zərər haqqında hesabatda xalis əsasda valyuta məzənnələri üzrə mənfəət/(zərər) tərkibində təqdim olunur.

## Vergi

Gəlir vergisi xərcləri cari və təxirə salınmış vergilərin cəmini əks etdirir.

CARİ GƏLİR VERGİSİ.

Cari vergi il üzrə vergi tutulan mənfəətə əsaslanır. Vergi tutulan mənfəət mənfəət və ya zərərdə əks etdirilən xalis mənfəətdən fərqli ola bilər, çünki o, digər illərdə vergiyə cəlb edilən və ya çıxılan gəlir və ya xərc maddələrini və heç vaxt vergiyə cəlb olunmayan və ya çıxılan maddələri istisna edir. Şirkətin cari vergi üzrə öhdəliyi Azərbaycan Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq hesablanır.

Rəhbərlik mütəmadi olaraq vergi bəyannamələrində tətbiq olunan vergi qaydalarının şərh edilməli olduğu vəziyyətlərlə bağlı mövqeləri qiymətləndirir və müvafiq hallarda müddəalar yaradır.

TƏXİRƏ SALINMIŞ VERGİ.

Təxirə salınmış vergi konsolidə edilmiş maliyyə hesabatlarında aktiv və öhdəliklərin balans dəyəri ilə mənfəət verginin hesablanmasında istifadə edilən müvafiq vergi bazaları arasındakı fərqlər üzrə ödənilməli və ya bərpa oluna bilən vergidir və öhdəlik metodundan istifadə etməklə uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri ümumiyyətlə bütün vergi tutulan müvəqqəti fərqlər üçün, təxirə salınmış vergi aktivləri isə çıxılan müvəqqəti fərqlərdən, vergiyə cəlb olunan gəlirin istifadə oluna bilən ehtimal edilən dərəcədə tanınır. Müvəqqəti fərq nə vergiyə cəlb olunan gəlirin, nə də uçot mənfəətinə təsir göstərməyən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanınmasından (müəssisələrin birləşməsindən başqa) yaranarsa, bu cür aktiv və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və aktivin hamısının və ya bir hissəsinin bərpa olunmasına imkan vermək üçün kifayət qədər vergiyə cəlb olunan gəlirin olacağı ehtimalı artıq olmadığı dərəcədə azaldılır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri cari vergi aktivlərini cari vergi öhdəlikləri ilə əvəz etmək üzrə qanuni hüquqa malik olduqda və onlar eyni vergi orqanı tərəfindən tutulan mənfəət vergilərinə aid olduqda və eyni zamanda Şirkət cari vergi aktivlərini və öhdəliklərini xalis əsaslarla ödəmək niyyətində olduqda əvəzləşdirilir.

Cari və təxirə salınmış vergi, digər məcmu gəlirdə və ya bilavasitə kapitalda tanınmış maddələrə aid olduğu hallar istisna olmaqla, mənfəət və ya zərərdə tanınır. Bu halda vergi həm də müvafiq olaraq digər məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

## <u>Əmlak, tikili və avadanlıq</u>

Əsas vəsaitlər hər hansı yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır. Torpaq amortizasiya olunmur.

İstehsal, təchizat və ya inzibati məqsədlər üçün və ya hələ müəyyən edilməmiş məqsədlər üçün tikinti prosesində olan daşınmaz əmlak hər hansı tanınmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyərlə uçota alınır. Dəyərə peşəkar haqlar və tələblərə cavab verən aktivlər üçün Şirkətin uçot siyasətinə uyğun olaraq kapitallaşdırılan borclar üzrə məsrəflər daxildir. Bu aktivlərin digər əmlak aktivləri ilə

eyni əsaslarla müəyyən edilən amortizasiyası həmin aktivlər təyinatı üzrə istifadəyə hazır olduqdan başlayır.

Amortizasiya düz xətt metodundan istifadə etməklə aktivlərin ilkin alış dəyərindən və ya aktivin qiymətləndirmə əsasında müəyyənləşmiş dəyərindən faydalı istifadə müddəti ərzindəki qalıq dəyərini çıxılmaqla aşağıdakı əsaslarla silmək üçün tanınır:

| **Kateqoriya** | **Faydalı istifadə müddəti** |
|---|---|
| Binalar və tikililər | 50 il |
| Maşın və avadanlıq | 10 il |
| Digər avadanlıq | 5 il |
| Nəqliyyat vasitələri | 6-10 il |

Təxmin edilən faydalı istifadə müddətləri, qalıq dəyərlər və amortizasiya metodu hər bir hesabat dövrünün sonunda yoxlanılır və baş vermiş hər hansı dəyişikliklərin təsiri perspektiv əsaslarla nəzərə alınır.

Torpaq, tikili və avadanlıq satıldıqda və ya aktivin davamlı istifadəsindən gələcək iqtisadi səmərələrin əldə olunmayacağı gözlənildikdə onun tanınması dayandırılır. Aktivin satılması və ya silinməsi nəticəsində yaranan gəlir və ya zərər satış gəlirləri ilə aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

## Qeyri-maddi aktivlər

Alınmış qeyri-maddi aktivlər tanınma zamanı ilkin dəyərlə ölçülür.

İlkin tanınmadan sonra, qeyri-maddi aktiv hər hansı yığılmış amortizasiya və hər hansı yığılmış qiymətdən düşmə zərərləri çıxılmaqla özünün ilkin dəyəri ilə uçota alınmalıdır. Kapitallaşdırılmış inkişaf xərcləri istisna olmaqla, daxili şəkildə yaradılmış qeyri-maddi aktivlər kapitallaşdırılmır və müvafiq xərclər xərclərin çəkildiyi dövrdə mənfəət və ya zərərdə əks etdirilir.

Qeyri-maddi aktivlərin faydalı istifadə müddəti məhdud və ya qeyri-müəyyən müddət kimi qiymətləndirilir.

Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər faydalı iqtisadi istifadə müddəti ərzində amortizasiya edilir və qeyri-maddi aktivin dəyərsizləşə biləcəyinə dair əlamətlər olduqda dəyərsizləşmə üçün qiymətləndirilir. Məhdud faydalı istifadə müddəti olan

qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metodu hər hesabat dövrünün sonunda ən azı bir dəfə nəzərdən keçirilir.

Gözlənilən faydalı istifadə müddətində və ya aktivdə təcəssüm olunmuş gələcək iqtisadi səmərələrin gözlənilən istehlak modelində dəyişikliklər müvafiq hallarda amortizasiya müddətinə və ya metoduna dəyişiklik etmək üçün nəzərdə tutulur və uçot təxminlərində dəyişikliklər kimi nəzərə alınır. Son istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri mənfəət və ya zərər haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olan xərc kateqoriyasında tanınır.

Qeyri-müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər amortizasiya olunmur, lakin hər il fərdi və ya pul vəsaitlərini yaradan vahidlər səviyyəsində dəyərsizləşmə üzrə sınaqdan keçirilir. Aktivin qeyri-müəyyən faydalı istifadə müddətinin qiymətləndirilməsi aktivin qeyri-müəyyən faydalı istifadə müddətli olmasını dəstəklənməyə davam edib-etmədiyini müəyyən etmək üçün hər il nəzərdən keçirilir. Əks halda, faydalı istifadə müddətinin qeyri-müəyyən müddətdən müddətliyə dəyişməsi perspektiv əsasda həyata keçirilir.

Qeyri-maddi aktiv silindikdə (yəni, alıcı nəzarəti əldə etdiyi tarixdə) və ya onun istifadəsi və ya silinməsindən gələcək iqtisadi səmərə gözlənilmədikdə tanınması dayandırılır. Aktivin tanınmasının dayandırılması zamanı yaranan hər hansı gəlir və ya zərər (aktivin silinməsindən əldə olunan xalis gəlirlə balans dəyəri arasında fərq kimi hesablanır) mənfəət və ya zərər haqqında hesabata daxil edilir.

## Ehtiyatlar

Xammal, bitməmiş istehsalat və hazır məhsullar ilkin dəyərdən və ya xalis satış dəyərindən ən aşağı olan qiymətlə uçota alınır. Dəyər birbaşa materialları və müvafiq hallarda birbaşa əmək məsrəflərini və ehtiyatların hazırkı yer və vəziyyətinə gətirilməsi zamanı çəkilmiş qaimə məsrəflərini əhatə edir. Dəyər orta çəkili maya dəyəri metodundan istifadə etməklə hesablanır. Alınmış inventarların dəyəri güzəştlər və endirimlər çıxıldıqdan sonra müəyyən edilir. Xalis satış dəyəri təxmin edilən satış qiymətini bütün təxmin edilən tamamlama xərcləri və marketinq, satış və paylama zamanı çəkiləcək məsrəflər çıxılmaqla əks etdirir.

## Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Maliyyə vəziyyəti haqqında hesabatda yer alan pul vəsaitləri və onların ekvivalentləri banklarda və kassada olan pul vəsaitlərini və nağd pul məbləğlərinə asanlıqla

konvertasiya edilə bilən və cüzi dəyər dəyişiklikləri riskinə məruz qalan ilkin ödəmə müddəti üç ay və ya daha az olan qısamüddətli yüksək likvidli əmanətləri və bank overdraftlarını əhatə edir. Bank overdraftları balansda cari öhdəliklərdə borclar daxilində göstərilir.

## Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Şirkət hər hesabat tarixində aktivin dəyərsizləşməsinə dair əlamətin olub-olmamasını qiymətləndirir. Hər hansı dəyərsizləşmə əlaməti varsa və ya aktiv üçün illik dəyərsizləşmə testi tələb olunduqda, Şirkət aktivin bərpa edilə bilən dəyərini təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri aktivin və ya pul vəsaitlərini yaradan vahidin (PYV) ədalətli dəyərindən xaric etmə xərcləri çıxılmaqla alınan dəyərdən və onun istifadə dəyərindən daha yüksək olanıdır. Bərpa edilə bilən dəyər, digər aktivlərdən və ya aktiv qruplarından əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin daxilolmalarını yaratmadığı halda, fərdi aktiv üçün müəyyən edilir. Aktivin və ya pul vəsaitlərini yaradan vahidin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olduqda, aktiv dəyərsizləşmiş hesab edilir və bərpa edilə bilən dəyərə qədər silinir.

İstifadə dəyərini qiymətləndirərkən, təxmin edilən gələcək pul vəsaitlərinin hərəkəti pulun zaman dəyərinin cari bazar qiymətləndirmələrini və aktivə xas riskləri əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə etməklə onların cari dəyərinə diskont edilir. Xaric edilmə xərcləri çıxılmaqla ədalətli dəyərin müəyyən edilməsində son bazar əməliyyatları nəzərə alınır. Əgər belə əməliyyatlar müəyyən edilə bilmirsə, müvafiq qiymətləndirmə modelindən istifadə edilir.

dəyərsizləşmənin hesablanmasını ən son büdcələr və fərdi aktivlərin bölüşdürüldüyü Şirkətin hər bir pul vəsaitlərini yaradan vahid üçün ayrıca hazırlanmış proqnoz hesablamaları əsasında edir. Bu büdcələr və proqnoz hesablamaları ümumiyyətlə beş illik dövrü əhatə edir. Uzunmüddətli artım tempi hesablanır və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkətini layihələndirmək üçün tətbiq edilir.

Davam edən əməliyyatların dəyərsizləşməsi ilə bağlı zərərlər mənfəət və ya zərər haqqında hesabatda digər məcmu gəlir hesabatında aparılan yenidən qiymətləndirmə ilə əvvəllər yenidən qiymətləndirilmiş əmlaklar istisna olmaqla, dəyərsizləşmiş aktivin funksiyasına uyğun olaraq xərc kateqoriyalarında tanınır.

Bu cür əmlaklar üçün dəyərsizləşmə əvvəlki hər hansı yenidən qiymətləndirmənin məbləğinə qədər digər məcmu gəlir hesabatında tanınır.

Qudvil istisna olmaqla, aktivlər üçün əvvəllər tanınmış dəyərsizləşmə itkilərinin artıq mövcud olmadığı və ya azaldığına dair əlamətin olub-olmadığını müəyyən etmək üçün

hər hesabat tarixində qiymətləndirmə aparılır. Belə bir əlamət varsa, Şirkət aktivin və ya pul vəsaitlərinin yaradılması vahidinin bərpa edilə bilən məbləğini təxmin edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərəri yalnız sonuncu dəyərsizləşmə zərərinin tanınmasından sonra aktivin bərpa edilə bilən dəyərini müəyyən etmək üçün istifadə edilən fərziyyələrdə dəyişiklik olduqda ləğv edilir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərini və ya əvvəlki illərdə aktiv üçün dəyərsizləşmə zərəri tanınmadığı təqdirdə, amortizasiya çıxılmaqla müəyyən edilə bilən balans dəyərindən artıq olmamaq üçün məhdudlaşdırılır. Aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınmadıqda, bu cür geri qaytarma mənfəət və ya zərər haqqında hesabatda tanınır və bu halda bərpa yenidən qiymətləndirmə artımı kimi nəzərə alınır.

Qeyri-müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər hər il müvafiq olaraq və şərtlər balans dəyərinin dəyərsizləşə biləcəyini göstərdikdə pul vəsaitlərinin yaradılması vahidi səviyyəsində dəyərsizləşmə üçün yoxlanılır.

Maliyyə aktivləri

İLKİN TANINMA VƏ ÖLÇÜM.
Əhəmiyyətli maliyyə komponentinə malik olmayan və əməliyyat qiyməti ilə qiymətləndirilən ticarət debitor borcları istisna olmaqla, maliyyə aktivləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin (maliyyə aktivləri istisna olmaqla və ədalətli dəyəri mənfəət və ya zərərdə əks etdirilməklə) əldə edilməsi və ya buraxılması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri ilkin tanınma zamanı maliyyə aktivlərinin ədalətli dəyərinə əlavə edilir. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivlərinin əldə edilməsi ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

Maliyyə aktivlərinin bütün müntəzəm alış və ya satışının tanınıb-tanınmaması ticarət tarixi əsasında aparılır. Müntəzəm alış və ya satışlar bazarda tənzimləmə və ya konvensiya ilə müəyyən edilmiş vaxt çərçivəsində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alışı və ya satışıdır. Bütün tanınmış maliyyə aktivləri sonradan maliyyə aktivlərinin təsnifatından asılı olaraq ya amortizasiya olunmuş dəyərlə, ya da ədalətli dəyərlə bütövlükdə ölçülür.
MALİYYƏ AKTİVLƏRİNİN TƏSNİFATLANMASI.
Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

• məqsədi müqavilə üzrə pul vəsaitlərinin hərəkətini toplamaq üçün maliyyə aktivlərini saxlamaq olan biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivi; və

• müəyyən tarixlərdə yalnız əsas borcun və ödənilməmiş əsas borcun faizinin ödənişləri olan pul vəsaitlərinin hərəkətinə səbəb olan maliyyə aktivinin müqavilə şərtləri.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGƏD):

• məqsədinə həm müqavilə üzrə pul vəsaitlərinin hərəkətini toplamaq, həm də maliyyə aktivlərini satmaqla nail olunan biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivi; və

• müəyyən tarixlərdə yalnız əsas borcun və ödənilməmiş əsas borcun faizinin ödənişləri olan pul vəsaitlərinin hərəkətinə səbəb olan maliyyə aktivinin müqavilə şərtləri.

Bir qayda olaraq, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MVZƏD). Yuxarıda göstərilənlərə baxmayaraq, Şirkət maliyyə aktivinin ilkin tanınması zamanı aşağıdakı geri alınmaz seçim/təyinat üzrə seçim edə bilər:

• Müəyyən meyarlar yerinə yetirildiyi təqdirdə, Şirkət səhm investisiyasının ədalətli dəyərindəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə təqdim etməyi bir qayda olaraq seçə bilər; və

• Əgər mühasibat uyğunsuzluğu aradan qalxacaqsa və ya əhəmiyyətli dərəcədə azalacaqsa, Şirkət geri qaytarılmayan şəkildə amortizasiya olunmuş dəyərə və ya Digər məcmu gəlir vasitəsilə ədalətli dəyər meyarlarına cavab verən borc investisiyasını mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD ) ilə ölçüləcək şəkildə təyin edə bilər (bax: aşağıda "MZVƏD -də maliyyə aktivləri").

AMORTİZASİYA EDİLMİŞ XƏRC VƏ EFFEKTİV FAİZ ÜSULU

Effektiv faiz metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və müvafiq dövr ərzində faiz gəlirlərinin bölüşdürülməsi üsuludur.

Alınmış və ya yaranmış kreditlə dəyərsizləşmiş maliyyə aktivləri (yəni, ilkin tanınma zamanı kreditlə dəyərsizləşmiş aktivlər) istisna olmaqla, digər maliyyə aktivləri üçün effektiv faiz gözlənilən kredit itkiləri istisna olmaqla, borc alətinin gözlənilən istifadə müddəti və ya müvafiq hallarda daha qısa müddət ərzində ilkin tanınma zamanı borc alətinin ümumi balans dəyərinə qədər təxmin edilən gələcək nağd pul daxilolmalarını (effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və digər mükafatlar və ya endirimlərin

tərkib hissəsini təşkil edən ödənilmiş və ya alınmış bütün haqlar və xallar daxil olmaqla) dəqiq diskont edən dərəcədir.

Alınmış və ya yaranmış kreditlə dəyərsizləşmiş maliyyə aktivləri üçün kreditə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi gözlənilən kredit itkiləri daxil olmaqla, təxmin edilən gələcək pul vəsaitlərinin hərəkətini ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırmaqla hesablanır. Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri maliyyə aktivinin ilkin tanınma zamanı ölçüldüyü məbləğdən əsas borc ödənişləri çıxılmaqla, üstəgəl həmin ilkin məbləğ və ödəmə məbləği arasındakı fərqin effektiv faiz metodundan istifadə etməklə hər hansı zərər müavinəti üçün düzəliş edilmiş məcmu amortizasiyadır. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı zərər ehtiyatına düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəridir.

Faiz gəlirləri sonradan amortizasiya olunmuş dəyərlə və digər məcmu gəlir vasitəsilə (DMGƏD ) ədalətli dəyər ilə ölçülən borc alətləri üçün effektiv faiz metodundan istifadə etməklə tanınır. Alınmış və ya yaranmış kreditlə dəyərsizləşmiş maliyyə aktivlərindən başqa maliyyə aktivləri üçün faiz gəliri sonradan kredit dəyərsizləşməsinə uğramış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilməklə hesablanır (aşağıya bax).Sonradan kredit baxımından dəyərsizləşmiş maliyyə aktivləri üçün faiz gəliri maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit riski olan maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit dəyərsizləşməsinə məruz qalmaması üçün yaxşılaşarsa, faiz gəliri maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilməklə tanınır.

Alınmış və ya yaranmış kreditlə dəyərsizləşmiş maliyyə aktivləri üçün Şirkət ilkin tanınma anından maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə kreditə uyğunlaşdırılmış effektiv faiz dərəcəsini tətbiq etməklə faiz gəlirini tanıyır. Maliyyə aktivinin kredit riski sonradan yaxşılaşsa belə, hesablama ümumi bazaya qaytarılmır ki, maliyyə aktivi artıq kredit dəyərsizləşməsinə məruz qalmasın.

MƏNFƏƏT VƏ YA ZƏRƏR VASİTƏSİLƏ ƏDALƏTLİ DƏYƏRDƏ (MZVƏD) MALİYYƏ AKTİVLƏRİ

Amortizasiya olunmuş dəyər və ya DMGVƏD ilə ölçülmə meyarlarına cavab verməyən maliyyə aktivləri (MZVƏD) ilə ölçülür. Konkret olaraq:

- Şirkət nə ticarət üçün saxlanmayan kapital investisiyasını, nə də müəssisələrin birləşməsi nəticəsində yaranan şərti kompensasiyanı ilkin tanınma zamanı DMGVƏD kimi təyin etmədiyi halda, kapital alətlərinə investisiyalar (MZVƏD) kimi təsnif edilir.

- Amortizasiya olunmuş dəyər meyarlarına və ya DMGVƏD meyarlarına cavab verməyən borc alətləri MZVƏD kimi təsnif edilir Bundan əlavə, əgər belə təyinat ölçmə və ya aktivlərin və ya öhdəliklərin ölçülməsi və ya onlar üzrə mənfəət və zərərlərin müxtəlif əsaslarla tanınması nəticəsində yaranan uyğunsuzluğu ("mühasibat uçotu uyğunsuzluğu" adlanır) aradan qaldırar və ya əhəmiyyətli dərəcədə azaldarsa amortizasiya olunmuş dəyər meyarlarına və ya DMGVƏD meyarlarına cavab verən borc alətləri ilkin tanınma zamanı MZVƏD kimi təyin edilə bilər.

MZVƏD üzrə maliyyə aktivləri hər hesabat dövrünün sonunda ədalətli dəyərlə ölçülür və ədalətli dəyər qazancları və ya zərərləri təyin edilmiş hedcinq münasibətlərinin bir hissəsi olmadığı dərəcədə mənfəət və ya zərərdə tanınır. Mənfəət və ya zərərdə tanınan xalis mənfəət və ya zərərə maliyyə aktivi üzrə əldə edilmiş hər hansı divident və ya faiz daxildir.

